# "Həyat" dövrünün əsl milli mətbuatı idi

**XX əsrin əvvəllərində Azərbaycan iqtisadiyyatında milli sahibkarlığın, sənaye və burjuaziyanın, elmin yaranması milli intibahı da yetişdirirdi. Hüseyn Baykara "Azərbaycanın istiqlal mübarizəsi tarixi" kitabında yazır: "Azərbaycanın milli sərmayədarları özlərinin və xalqının qarət olunduğunu və müstəmləkə şəklində idarə edildiklərini dərk edirdilər. Bu idrak və şüur içərisində Azərbaycanın yerli sahibkarlarının himayəsində mədəniyyətə, kültürə, mətbuata, ədəbiyyata və texnikaya sahib müasir cəmiyyətləri meydana gəlir". Beləliklə, mənəvi həyatın yüksəlişi getdikcə milli və siyasi şüuru da inkişaf etdirirdi.**

Azərbaycanda o zaman Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov ideoloji mübarizədə üstünlüyü ələ keçirmək üçün bütün mümkün vasitələrdən istifadə etməyə çalışırdılar. Onlar 1905-ci il inqilabının təsirilə mütləqiyyətin apardığı islahatlardan, xüsusilə həmin il fevralın 18-də verilən bəyanatlardan istifadə edərək ixtilalın gətirdiyi imkanlardan, açıq şəraitdən, "çarın bir sıra haqlar vermək zorundan" geniş şəkildə faydalanmağı qarşıya məqsəd qoymuşdular. O dövrün ideoloqlarının nəzərdə tutduqları tədbirlər içərisində öz siyasi məramlarını həyata keçirmək üçün qəzet çıxarmaq məsələsi də mühüm yer tuturdu. Onlara görə, türk xalqlarının siyasi, sosial, iqtisadi ehtiyaclarını dilə gətirmək niyyətlərini mətbuatsız həyata keçirmək mümkün deyildi. "Mətbuatı bəşəriyyətin ən zəruri ehtiyaclarından biri", "cəmiyyətin həyatında ən qiymətli ideoloji vasitə", "zəlalətdə qalanlara doğru yol göstərən bir vasitə" kimi qiymətləndirən bu ziyalılara görə bir-birilə əlaqəsi olmayan ümumrusiya müsəlmanlarını təşkilati cəhətdən yalnız mətbuat vasitəsilə birləşdirmək mümkün olardı. Doğrudur, mətbuat Azərbaycanda 1875-ci ildən "Əkinçi" qəzeti ilə başlamışdısa da, lakin türk xalqlarında millətçilik şüurunun oyanmasında əsl işi "Həyat" qəzeti görmüşdü. "Həyat" qəzeti ideoloji tribun kimi onlara lazım idi. Ancaq bu yolda böyük çətinliklərlə üzləşirdilər. Əvvəla, ümumiyyətlə o zaman Azərbaycan türklərinin qəzet nəşr etmək işi çox çətin idi. Birincisi, lazımi vəsait yox idi. Digər tərəfdən, çarizm XIX əsrin sonlarında ermənilərə 5 adda, gürcülərə 4 adda qəzet çıxarmaq hüququ verdiyi halda, Azərbaycan ziyalılarının qəzet çıxarmaq haqqında xahiş və ərizələrini Qafqaz canişinliyi müxtəlif bəhanələrlə rədd edirdi. Ana dilli məcmuə və qəzetlər bağlanır, rusdilli mətbuatın yayılması isə genişləndirilirdi. Ona görə də ziyalıların, yəni Ə.Hüseynzadə və Ə.Ağaoğlunun ana dilində mətbuat yaratmaq tələbləri də yerinə yetirilmirdi.

"Həyat" qəzeti hələ nəşrə başlamamış o zaman "Baku", "Tiflisskiy listok", "Kavkaz", "Novoye obozreniye" qəzetlərində çar şovinist dairələri, bədxah erməni millətçiləri "Siyasi təhlükə yaxınlaşır" - deyə hay-küy qaldıraraq onun nəşrinə maneçilik törədirdilər. Məsələn, erməni qəzeti "Mşak" yazırdı: "Həyat"ın panislamizmin mübarizə orqanı olacağını demək üçün peyğəmbər olmaq lazım deyil". "Novoye obozreniye" qəzeti isə yazırdı ki: "Bu cənabları "Kaspi" qəzetindəki fəaliyyətinə görə tanıdığımız üçün əvvəlcədən əminik ki, "Həyat" qəzeti tərəqqi və sağlam fikirlər orqanı deyil, "insanlığa zidd və başqa millətlərə qarşı dözülməzlik orqanı olacaqdır". Onlar bu sözlərlə rus hökumətinin nəzərinə çatdırmaq istəyirdilər ki: "Qafqazda bütün türk ədib və jurnalistləri panislamistdir və türk jurnalistləri Qafqaz camaatını İslam bayrağı altına çəkmək istəyirlər". Lakin bütün çətinliklərinə baxmayaraq, tanınmış xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin vəsaiti hesabına Peterburqa göndərilən Azərbaycan ziyalıları Ə.Hüseynzadə, Ə.Ağaoğlu və Ə.Topçubaşova Peterburq Baş Mətbuat İdarəsi 1905-ci il aprelin 22-də "Həyat"ın nəşrinə icazə verir.

"Həyat" qəzeti Bakıda 1905-ci il iyun ayının 7-də nəşrə başlamış, 1906-cı il sentyabrın 4-də bağlanmışdır. Qəzetin sahibi-imtiyazı H.Z.Tağıyev, naşiri Ə.Topçubaşov, redaktorları Ə.Hüseynzadə, Ə.Ağaoğlu idi. Ə.Hüseynzadə və Ə.Ağaoğlu qəzetin ideya-siyasi istiqamətinə görə məsuliyyəti öz üzərlərinə götürmüşdülər. Onların ədəbiyyat, elm, maarif, siyasət məsələlərində səyləri nəticəsində türkçülük ideyaları siyasi əhəmiyyət kəsb edirdi. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Abdulla Tukay, N.Nərimanov, M.Ə.Sabir, H.B.Zərdabi, C.Məmmədquluzadə, N.B.Vəzirov, Ə.Haqverdiyev, A.Səhhət, M.B.-Hacınski, M.Hadi, F.Köçərli, Mirzə Nəsib Qüdsi, Axund Mirzə Əbuturab, Hafiz Əfəndi Şeyxzadə, H.S.Ayvazov, Ə.İbrahimov və başqa ziyalılar da qəzetin işində iştirak edirdilər.




"Həyat"ın ümumrusiya, o cümlədən Azərbaycan türklərinin milli oyanışında rolu danılmazdır. Qəzetin əsas aparıcı proqramı və vəzifələri nöqteyi-nəzərindən birinci nömrəsində dərc olunmuş "Qəzetimizin məsləki" adlı baş məqalə xüsusilə əhəmiyyətlidir. Redaktorlar ilk nömrədən oxucularına öz məsləklərini elan edirdilər: "Həyat"ın həqiqi mənası fikrən və cismən tərəqqi etmək, nəşrü-nüma və təkamüldür".

Ə.Hüseynzadə 1890-cı ildən Türkiyədə yaratdığı "İttihat və Tərəqqi" cəmiyyəti ilə başladığı türkçülük fəaliyyətini 1905-ci ildə "Həyat" qəzeti ilə Azərbaycanda ümumrusiya türkləri arasında davam etdirirdi. Azərbaycanın ictimai fikir tarixində "Həyat" türkçülüyün mətbuat orqanı kimi tanınsa da, bu qəzet, Azərbaycan xalqının həyatında erməni məsələsini açıqlayan mətbuat orqanı kimi böyük rol oynamışdır. Dövrünün əsl milli mətbuatı olan bu qəzetin elə bir nömrəsi, elə bir səhifəsi yoxdur ki, ətrafında baş verən erməni-müsəlman hadisələrini əks etdirməsin. "Həyat"ın redaktorları erməni millətçilərinin bədxah niyyətlərinə, qərəzli hücumlarına qəzetin sipər edirdilər. Ermənilərin xain hərəkətlərini yaddaşlara həkk etdirmək üçün iradə və istedadlarını bütünlüklə meydana qoyaraq erməni şovinizminin əsl mahiyyətini açıq və sistemli şəkildə ifşasını qəzetdə bir neçə istiqamətdə aparırdılar. Bunu "Həyat"da həm özlərinin, həm müasirləri M.Ə.Sabirin, Ə.Haqverdiyevin, N.B.Vəzirovun, N.Nərimanovun məqalələrilə, həm də qəzetin səhifələrində "Dəva xəbərləri", "Naxçıvan xəbərləri", "İrəvan xəbərləri", "Məvərayi-Xəzər xəbərləri", "Balaxanı xəbərləri" başlıqları altında gedən yazılarla, həmin yerlərdə ermənilərin müsəlman torpaqlarında törətdikləri talanlar, qırğınlar haqqında müntəzəm şəkildə məlumat verən xəbərlərlə və s. istiqamətdə həyata keçirirdilər. "Erməni mətbuatı" rubrikasında o zaman "Mşak", "Arşalius", "Araq" adlı erməni qəzetlərində Azərbaycan türklərinin ünvanına yağdırılan iftira və böhtanlarla oxucularını agah edərək erməni daşnaklarının fitnəkar siyasətlərinin əsl mahiyyətini aşkarlayırdılar. Məsələn, həmin qəzetlərdə ermənilər özlərinin törətdikləri faciələri müsəlmanların adına yazaraq onları "vəhşi", "etibarsız" bir tayfa kimi rüsvay etməyə və ictimaiyyətin gözündən salmağa çalışırdılar.

Onlar müsəlmanlarla rus hökumətinin münasibətlərini pozmaq üçün təkcə yerli mətbuatda deyil, mərkəzi mətbuatda da ("Novoye vremya", Peterburqskiye vedomosti", "Sın oteçestva", "Okraini Rossii" və s.) müsəlmanların əleyhinə yalan və böhtanlar yağdırırdılar.

"Həyat" qəzeti ermənilərin təxribatçılıq, işğalçılıq siyasətini ifşa edərkən, onların yalnız Azərbaycan türkləri üçün deyil, bütün müsəlman xalqları üçün böyük təhlükə olduğunu da bildirirdilər.

"Həyat" fəaliyyətinin az sürməsinə, senzura və polis idarələrinin təqibləri üzündən çətin şəraitdə nəşr olunmasına baxmayaraq, qəzet nəinki Azərbaycan xalqının, o cümlədən Rusiyadakı bütün türk xalqlarının siyasi, mədəni həyatına ciddi təsir göstərmiş, bir çox qabaqcıl ziyalılar yetişdirmişdir. Türkçülük ideyaları türk xalqlarının mənəvi həyatına az bir müddətdə yol tapmış, nüfuz etmişdi. Qəzet nəşrə başladığı ilk gündən onunla bütün türk aləmi hesablaşır, səsinə səs verirdilər.

İlk dəfə "Həyat" qəzetində Azərbaycanın milli istiqlal bəyannaməsinin əsas təməl prinsipləri elan edildi. "Biz insanız", "Biz Qafqazlıyız", "Biz müsəlmanıq", "Biz türküz". İlk dəfə bu qəzetlə Ə.Hüseynzadə özünün "türkləşmək, islamlaşmaq, avropalaşmaq" kimi nəzər prinsiplərini ortaya qoydu.

Həqiqətən, "Həyat" qəzeti və onun baş mühərriri Ə.Hüseynzadə Azərbaycan xalqının milli fikrinin inkişafında mühüm rol oynamışdır. "Həyat"ın və onun redaktorlarının türk xalqlarının ictimai-siyasi fikir tarixindəki böyük rolunu türk ziyalıları qəzet bağlandıqdan sonra da yazılarında: "...Ah, kaş ki, onlar kibi beş-on mücahid bizdə də olaydı da..." - deyə vurğulayırdılar...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**